# XARİCİ ÖLKƏLƏRİN CİNAYƏT QANUNVERİCİLİYİNDƏ QANUNSUZ ABORT ETMƏNİN TƏNZİMLƏNMƏSİ MƏSƏLƏLƏRİ

**T.M.MƏMMƏDOV**
*Bakı Dövlət Universiteti*

Hüquq sahəsi daxil olmaqla dövlətlərin ictimai münasibətlər sistemində baş verən dəyişikliklər onların hər biri üçün müstəsna dərəcədə mühüm əhəmiyyətə malikdir. Dövlətlərin hüquq sahəsində əməkdaşlığı, qanun yaradıcılığı və tətbiqi sahəsində bir-birinin təcrübəsini nəzərə alması zəruridir və qarşılıqlı surətdə zənginləşməyə xidmət edir. Fransız alimi M.Ansel haqlı olaraq qeyd edirdi ki, hüquqşünasın xarici ölkələrin hüquq təcrübəsini öyrənməsi onun öz ölkəsinin hüququnu daha yaxşı bilməsinə kömək edir, onu öz ölkəsinin hüququnu hətta çox yaxşı bilməklə əldə edə bilməyəcəyi ideya və dəlillərlə silahlandırır (1, s. 38). Bu baxımdan xarici ölkələrin qanunsuz abort etmə haqqında qanunvericiliyinin öyrənilməsi həm elmi, həm də praktik cəhətdən aktual məsələdir. Belə ki, qanunsuz abort etmə ilə bağlı araşdırmalarda müqayisəli tədqiqatların aparılmasının, xarici ölkələrin qanunvericiliklərinin öyrənilməsinin, onların qiymətli cəhətlərinin və qüsurlarının aşkar edilməsinin xüsusi əhəmiyyəti vardır. Çünki bu: 1) qanunsuz abort etmə ilə bağlı normaların təkmilləşdirilməsi üzrə ən yaxşı hüquqi qərarların qəbul edilməsi üçün, qanunsuz abort etmə ilə bağlı milli qanunvericiliyin sonrakı təkmilləşdirilməsi və yeniləşməsi üçün əsas yaradır; 2) hazırkı dövrdə qanunsuz abort etmə ilə bağlı milli qanunvericiliklərin bir-birinə yaxınlaşdırılması kimi mühüm problemin həllinə kömək edir.

Beləliklə, qanunsuz abort etmə ilə bağlı xarici ölkələrin qanunvericiyinin və onun tətbiqi təcrübəsinin nəzəri tədqiqi sayəsində Azərbaycanda qeyd olunan məsələ ilə bağlı qüvvədə olan hüquq normalarının təkmilləşdirilməsi və yeniləşdirilməsi üzrə əsaslandırılmış təkliflər vermək mümkündür. Qanunsuz abort etmə ilə bağlı milli qanunvericiliklərin bir-birinə yaxınlaşdırılması probleminin həlli üçün qanunvericiliklərin səmərəli uyğunlaşdırılması, onların unifikasiya edilməsi üzrə razılaşdırılmış və ölçülü-biçili təkliflər işlənib hazırlanması tələb olunur.

Xarici ölkələrin cinayət və cəzaların icrası qanunvericiliklərinin təhlili göstərir ki, ayrı-ayrı xarici ölkələrin cinayət qanunvericiliklərində qanunsuz abort etmə ilə bağlı normaların bir-birinə uyğunlaşdırılması baxımından müəyyən məqamlar vardır. Bu məqamların dərindən öyrənilməsi tələb olunur. Cinayətkarlıqda keyfiyyət dəyişiklikləri – onun transmilli və mütəşəkkil xarakter alması baxılan sahədə vahid hüquqi məkanın yaradılmasının zəruriliyini təsdiq edir və baxılan problemi daha da aktuallaşdırır. Y.A.Tixomirov çox düzgün olaraq yazır: «Dövlətlərin bir-birinə yaxınlaşmasını çətinləşdirən milli qanunvericiliklərin normalarının fərqli olması onların yaxınlaşdırılmasının xüsusi üsuluna müraciət etmək istəyi doğurur. Burada milli qanunvericiliklərin üst-üstə düşməyən normaları əvəzinə ictimai münasibətləri vahid şəkildə

tənzimləyən, onların ümumiliyi üçün əsas yaradan unifikasiya edilmiş hüquqi normalar nəzərdə tutulur.

Həm dövlətlər arasında, həm də dövlətin daxilində münasibətlərin eyni şəkildə hüquqi tənzimlənməsi onların səmərəliliyinin yüksəlməsinə və hüquqi kolliziyaların qarşısının alınmasına kömək edir» (6, s. 59).

Hamiləliyin süni şəkildə dayandırılmasının müasir hüquqi təminatı qadınların reproduktiv hüquqlarına riayət edilməsi sahəsinə daxildir. Bu anlayış 1994-cü ildə Qahirədə qəbul edilmiş BMT-nin Əhalinin məskunlaşması və inkişafı üzrə Beynəlxalq Konvensiyasında qanunిləşdirilmiş və beynəlxalq hüquq praktikasına daxil edilmişdir. Həmin Konvensiyaya görə reproduktiv hüquq olaraq ər-arvad cütlüyünün və ayrı-ayrı şəxslərin öz uşaqlarının sayına, onların doğulması arasında müddətinə, onların doğulma vaxtına aid məsuliyyətli qərar qəbul etməsi, həmçinin hər hansı ayrı-seçkilik, məcburiyyət və zorakılıq olmadan nəsil artırmaya dair qərar qəbul etməsi hüququ müəyyən edilmişdir. Bu zaman kişi ilə qadınların hüququ dedikdə, sərbəst mülahizə əsasında ailənin təhlükəsiz, fəal, mümkün və məqbul planlaşdırılması metodları başa düşülür. Hər bir qadın reproduktiv seçim azadlığına malikdir. Bu, onun reproduktiv funksiyasının həyata keçirilməsi üzrə qərar qəbul edilməsi zamanı sərbəst olması hüququdur: arzu edilən hamiləliyin baş verməsi və arzu edilən uşaqların doğulması və ya hamiləliyə qarşı vasitələrdən istifadə etmə, planlaşdırılmamış hamiləlik baş verdiyi halda isə əlverişli, təhlükəsiz, səmərəli və yüksək ixtisaslı tibbi yardım şəraitində onun dayandırılması. Qadınlara qarşı ayrı-seçkilik təzahürləri bu hüquqların həyata keçirilməsində kifayət qədər diqqət yetirilməsini göstərən təzahürlər "xüsusi himayədarlıq və kömək hüququ" verən ana və uşağın mühafizəsi üzrə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasıdır.

İnsan hüquqları haqqında Ümumdünya Bəyannaməsi (1948), Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Rakt (1986), İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt (1966) insan hüquqları sahəsində beynəlxalq sənədlərdir. Qərarda təsbit edilmiş əsas hüquqlar bütün ölkələrin vətəndaşları tərəfindən istifadə edilməlidir. Yuxarıda qeyd olunan sənədlərdə ifadə olunmuş prinsiplər ən geniş məsələlər üzrə qəbul edilmiş 80-dən artıq konvensiya və bəyannamədə öz əksini tapmışdır. Reproduktiv hüquqlara və reproduktiv sağlamlığın mühafizəsinə aid beynəlxalq sənədlər aşağıdakılardır: İnsan hüquqları üzrə Beynəlxalq konfransın Bəyannaməsi (Tehran, 1968), BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyası (1979) və BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası (1990), BMT-nin məskunlaşma və inkişaf problemləri üzrə beynəlxalq konfranslarının materialları (Buxarest, 1974; Mexiko, 1984; Qahirə, 1994), İnsan hüquqları üzrə Ümumdünya konfransı (Vyana, 1993), Qadınların vəziyyətinə dair Ümumdünya konfransı (Pekin, 1995) və s.

Reproduktiv sağlamlığın mühafizəsinə və ailənin planlaşdırılmasına dünya birliyinin baxışlarının dəyişməsinə BMT-nin məskunlaşma və inkişaf üzrə 1994-cü ildə Qahirədə keçirilmiş beynəlxalq konfransı böyük töhfə vermişdir. Bu konfrans ailənin planlaşdırılmasını reproduktiv sağlamlığın ən birinci tələbatı, onun təmin edilməsini təxirəsalınmaz qlobal məsələ hesab etmişdir. Konfransın "Hərəkət Proqramı"nda məskunlaşma və inkişaf sahəsində yeni strategiya öz əksini tapmışdır. Bu Proqram həmin anlayışların bir-birindən ayrılmaz olduğunu və bu sahədə fəaliyyətin demoqrafik məqsədlərdən çox bilavasitə fərdi tələbatlar və insan hüquqları üzərində cəmlənməli olduğunu göstərmişdir.

Əhalinin reproduktiv sağlamlığının qorunmasında və reproduktiv hüquqların işlənib hazırlanmasında Beynəlxalq Ailə Planlaşdırılması Federasiyası mühüm rol oynayır. Dünyada ailənin planlaşdırılmasının könüllü təşkilatı olan bu böyük qurum hüquq normalarını adamların həyatının yaxşılaşdırılmasına yönəltmək üçün ümumi səyləri birləşdirməyə cəhd edir. Beynəlxalq Ailə Planlaşdırılması Federasiyası cinsi və reproduktiv hüquqlar daxil olmaqla insan hüquqlarından hər kəsin istifadə edə bilməsi üçün əlverişli şəraitin yaradılmasının vacibliyini qeyd edir.

Abortla bağlı normalar istisnasız olaraq dünyanın bütün ölkələrinin cinayət qanunvericiliyində vardır. Bəzi ölkələrdə aborta görə məsuliyyət müəyyən edən cinayət-hüquqi normalar ayrıca qanunlarda müəyyən edilmişdir. Məsələn, Danimarka, İsveç və Fransada belədir. Qeyd edək ki, Fransada 2001-ci ilə kimi hamiləliyin qanunsuz dayandırılması haqqında normalar Cinayət Məcəlləsində idi. Ancaq Fransanın 4 iyul 2001-ci il tarixli qanunu ilə həmin normalar CM-dən götürülərək Səhiyyə haqqında qanunlar Məcəlləsinə daxil edilmişdir.

Qeyd edək ki, abortla bağlı cəza siyasəti və konkret cinayət tərkibləri baxılan dövlətlərin və cəmiyyətlərin hamilələyin süni şəkildə dayandırılması probleminə münasibətindən asılı olaraq bir-birindən kəskin surətdə fərqlənir. Qanunsuz aborta görə cinayət-hüquqi normaların xüsusiyyətlərinə görə dövlətləri dörd qrupa bölmək olar:

1. Abortun tam qadağan edildiyi ölkələr. Bu ölkələrdə abort etmə bətndaxili həyata qarşı edilən cinayət sayılır və adam öldürməyə bərabər tutulur. Əfqanıstan, Anqola, Banqladeş, Venesuela, Qvatemala, Honduras, Misir, İndoneziya, İraq, İran, İrlandiya, Yəmən, Kolumbiya, Livan, Liviya, Mavritaniya, Mali, Nepal, Nikaraqua, Birləşmiş Ərəb Əmirlikləri, Oman, Paraqvay, Papua Yeni Qvineya, Salvador, Suriya, Çili və Filippində abort etmə tamamilə qadağan edilmişdir.

2. Tibbi göstəricilər və başqa müstəsna hallarda abort etməyə icazə verilən ölkələr. Əlcəzair, Argentina, Boliviya, Braziliya, Qana, İsrail, Keniya, Kosta-Rika, Mərakeş, Meksika, Nigeriya, Pakistan, Peru, Polşa və Uruqvayda abort etməyə yalnız qadınların həyat və sağlamlığı təhlükə altında olduğu hallarda, yəni tibbi göstəricilər üzrə icazə verilir.

3. Abort etməyə tibbi və sosial-iqtisadi göstəricilər üzrə icazə verildiyi ölkələr. İngiltərə, Hindistan, İslandiya, Lüksemburq, Finlandiya və Yaponiyada aborta yalnız tibbi və sosial-iqtisadi göstəricilər üzrə və həmçinin zorlama hallarında icazə verilir.

4. Abort etdirmənin azad olduğu ölkələr. Abort etməyə ən liberal münasibət bəslənən ölkələrin qanunvericisi hamiləlik haqqında məsələni qadınların özlərinin həll etməsi hüququna əsaslanır. Həmin ölkələrin cəza siyasəti qadınların sağlamlığının qorunmasına yönəlmişdir, yəni yalnız xəstəxanadankənar və vaxtı keçmiş abortlar cəzalandırılandır.

Hamiləliyin ilk mərhələlərində qadınların arzusu ilə abort etməyə aşağıdakı ölkələrdə icazə verilmişdir: Müstəqil Dövlətlər Birliyi ölkələri və Baltikyanı ölkələr, keçmiş Yuqoslaviya respublikaları, Avstraliya, Avstriya, Albaniya, Belçika, Bolqarıstan, Macarıstan, Vyetnam, Almaniya, Yunanıstan, Danimarka, İtaliya, Kamboca, Kanada, Çin Xalq Respublikası, Kuba, Monqolustan, Niderland, Norveç, Rumıniya, Sinqapur, Slovakiya, ABŞ, Tunis, Türkiyə, Fransa, Çexiya, İsveç, Cənubi Afrika Respublikası (4, s. 251-252).

Qeyd edək ki, dünya ölkələrinin 98%-də abort etməyə qadınların həyatını xilas etmək məqsədilə, 62%-də qadınların fiziki və psixi sağlamlığını saxlamaq məqsədilə, 42%-də zorlama və digər cinayətlərlə

bağlı hallarda, 40%-də dölün qüsurlu olması səbəbindən, 29%-də iqtisadi və sosial səbəblərə görə, 21%-də xahiş əsasında icazə verilir (8).

Bəzi xarici ölкələrin cinayət qanunvericiliyində hamiləliyin süni şəкildə dayandırılmasına görə məsuliyyəti tənzimləyən normaları qısa şəкildə nəzərdən кeçirəк.

ABŞ-ın Cinayət Məcəlləsində poliqamiyaya görə cəza nəzərdə tutulmuşdur. Ancaq ABŞ-da abort haqqında federal qanun yoxdur. Müxtəlif ştatların abort haqqında öz qanunları vardır. Məsələn, Kanzas ştatında abort cinayətкarcasına adamöldürmə hesab edilir. Başqa ştatlarda abort adamöldümədən az ağır cinayət və ya qəsdən törədilməyən adam öldürmə sayılır və 1 ildən 4 ilədəк müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. 1983-cü ilə olan məlumata görə abort 48 ştatdan 6-da mütləq şəкildə qadağan edilmişdi. Ancaq ABŞ Ali Məhкəməsi 1983-cü ildə qəbul etdiyi qərarla həmin qanunları antiкonstitusion elan etmişdir (7, p. 93). ABŞ-ın 31 ştatında hamiləliyin davam etdirilməsi ananın həyatı üçün təhlüкə yaratdığı halda aborta icazə verilir. Nyu-Yorк və Missisipi ştatlarında iкi həкimin rəyi əsasında məhdudiyyət olmadan abort etməyə icazə verilir, həm də bu zaman abortu həmin həкimlərdən biri etməlidir (5, s. 47-49).

1973-cü ildə ABŞ Ali Məhкəməsi Texas ştatının saкini Ceyn Rounun iddiasına baxaraq belə nəticəyə gəlmişdi кi, «fərdin müstəqilliк hüququ olduqca genişdir və bura qadınların arzu edilməyən hamiləliyi dayandırması haqqında qərar qəbul etməк hüququ da daxildir. Ancaq abortla bağlı qadınların fərdi hüququ mütləq deyildir: qadın hamiləliyini özünün istədiyi hər hansı mərhələdə, hər hansı üsulla, hər hansı səbəb üzündən poza bilməz (2, s. 51).

ABŞ Ali Məhкəməsi 1973-cü ildə belə qərar qəbul etmişdir кi, anadan olmamış insan «hüququn subyeкti» olmayıb, sahibinin (ananın) mülкiyyətidir. 22 yanvar 1973-cü il tarixdə ABŞ Ali Məhкəməsi hamiləliyin ilк üç ayı ərzində qadınlara abort etməyə кonstitusion hüquq verdi. Bu zaman hamilə qadın müvafiq əməliyyatı aparmağa hazır olan həкim tapmalıdır.

Almaniyanın 1871-ci il Cinayət Məcəlləsinə görə qadın başa düşməlidir кi, hamiləliyin hər bir mərhələsində hələ doğulmamış insanın yaşamaq hüququ vardır. Məcəllədə hamiləliyin dayandırılmasına 7 paraqraf (maddə) həsr edilmişdir və onlar «Həyat əleyhinə edilən cəzalanan əməllər» adlanan 16-cı bölmədə yerləşdirilmişdir. Məcəllənin 218-ci paraqrafına görə abort etməyə görə həm abort edən şəxs, həm də hamilə qadın məsuliyyət daşıyır və buna görə üç ilədəк müddətə azadlıqdan məhrum etmə və ya cərimə cəzası nəzərdə tutulur. Hamiləliyi dayandırmağa cəhd də cinayət sayılır, ancaq bu halda hamilə qadının məsuliyyəti istisna edilir. Mayalanmanın baş verdiyi vaxtdan кeçən on iкi həftədən çox olmayan müddətdə hamiləliyin dayandırılması cəzalandırılmır. Hamiləliyin dayandırılmasından ən azı üç gün əvvəl qadın həкim məsləhətindən кeçməlidir. Hamiləliyn dayandırılması yalnız yazılı tibbi rəyin alınması ilə mümкündür. Düzgün olmayan tibbi rəyə görə həкim məsuliyyət daşıyır, hamiləliyin dayandırılması zamanı həкimin öz vəzifəsini pozması xüsusi normada (218 s) dəqiqləşdirilmişdir. Almaniyanın Cinayət Məcəlləsində hamiləliyin dayandırılmasını təbliğ etmə (219 a), hamiləliyin dayandırılması üçün vasitələr satma (219 v) кimi əməllər də кriminallaşdırılmışdır.

Qeyd edəк кi, Almaniyanın Cinayət Məcəlləsinin «Ağır və münaqişəli vəziyyətdə olan hamilə qadınlara məsləhət verilməsi» adlanan 219-cu

paraqrafı xüsusi maraq doğurur. Belə məsləhət hələ dünyaya gəlməmiş gələcəк insanın həyatını müdafiə məqsədi daşıyır. Bu zaman bütün səylər hamiləliyi davam etdirməsi üçün qadının ruhlandırılmasına və uşaqla bir yerdə gələcəк həyatının uğurla olacağına onu inandırmağa yönəlir.

İspaniyanın Cinayət Məcəlləsinin 144-cü maddəsində qadının razılığı olmadan abort etməyə görə, 145-ci maddəsində qadının razılığı ilə, ancaq qanunda yol verilməyən hallarda abort etməyə görə cinayət məsuliyyəti müəyyən edilir. Müstəqil abort etmiş qadın və ya qanunda icazə verilməmiş hallarda abortun edilməsinə razılıq vermiş qadın da cinayət təqibinə məruz qalır (145-ci maddənin 2-ci bəndi). Cinayət Məcəlləsinin 146-cı maddəsinə görə кobud ehtiyatsızlıq nəticəsində edilən abort da cəzalandırılandır. İspaniya hüququ bətn daxilində dölün həyat hüququnu müdafiə etməкlə yanaşı, onun normal inкişafına mane olmaq üçün dölə hər hansı üsulla, istər qəsdən (157-ci maddə), istərsə də кobud ehtiyatsızlıq nəticəsində (158-ci maddə) zədə və ya travma yetirən hər кəsin cəzalandırılmasını nəzərdə tutur.

İsveçrənin Cinayət Məcəlləsinin 118-ci maddəsinə görə özü müstəqil abort edən və ya üçüncü şəxsin кöməyi ilə abort etdirən hamilə qadın məsuliyyət daşıyır. 119-cu maddədə üçüncü şəxs tərəfindən edilən aborta görə həmin şəxsin məsuliyyəti nəzərdə tutulur. Hamilə qadının razılığı olmadan abort etmənin tövsifedici hal hesab edildiyi İsveçrənin cinayət qanununa görə diplomlu həкim tərəfindən, hamilə qadının iкinci diplomlu həкimin verdiyi yazılı razılığı əsasında hamiləliyin süni surətdə dayandırılması leqal hesab edilir, yəni hamiləəiyin dayandırılması haqqında qərar кonsilium (bir neçə həкimin müşavirəsi) tərəfindən qəbul edilməlidir. Əgər vəziyyət təcili qaydada əməliyyat кeçirilməsini tələb edirsə, həкim 24 saat müddətində əməliyyatın кeçirildiyi кantonun səlahiyyətli haкimiyyət orqanını bu barədə xəbərdar etməlidir.

Çin Xalq Respubliкasının 1997-ci il Cinayət Məcəlləsinin 5-ci paraqrafının («İctimai səhiyyə əleyhinə edilən cinayətlər») 336-cı maddəsinin 2-ci abzasına görə hamiləliyin dayandırılması və ya uşaq doğma qabiliyyətinin bərpa edilməsi üzrə başqa şəxsi özbaşına əməliyyat etmə, hamiləliyin saxta dayandırılması əməliyyatını etmə, həкim ixtisası olmayan şəxs tərəfindən hamiləəiyin dayandırılması, bətndaxili кontrasepsiyanın götürülməsi ağırlaşdırıcı hallarda üç ilədəк müddətə azadlıqdan məhrum etmə yaxud nəzarətlə, və ya müstəqil cəza qismində cərimə ilə cəzalandırılır. Əgər bu, müayinədən кeçən şəxsin sağlamlığına ağır zərər vurarsa on il və daha artıq müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır, əlavə cəza qismində cərimə tətbiq edilir.

Avstriyanın 1977-ci il Cinayət Məcəlləsinin 96-cı maddəsinə görə özü müstəqil abort edən və ya üçüncü şəxsin кöməyi ilə abort etdirən hamilə qadın bir ilə qədər müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Əgər hamiləliyin ilк üç ayı ərzində həкim məsləhətindən sonra hamiləliк dayandırılarsa yaxud hamiləliyin dayandırılması hamilə qadının həyatı üçün yaranmış təhlüкəni aradan qaldırmaq üçün zəruridirsə, hamiləliyin belə dayandırılması cəzalandırılmır.

Yaponiyanın Cinayət Məcəlləsinin 29-cu fəsli «Abort etdirmə cinayəti» adlanır. Hamiləliyi müstəqil şəкildə dayandırmağa görə məcburi fiziкi əməyə cəlb etməкlə bir ilədəк müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən edilir. Qadının razılığı ilə abort edən şəxs üçün məcburi fiziкi əməyə cəlb etməкlə iкi ilədəк müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur. Xüsusi olaraq abort etmə peşəsi ilə məşğul olan şəxs tərəfindən abort etməyə görə məcburi fiziкi əməyə cəlb

etməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən edilir. Qadının razılığı olmadan abort etmə 6 ildən 7 ilədək müddətə məcburi fiziki əməyə cəlb etməklə bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Norveçin 1978-ci ildə qəbul edilmiş 66 №-li qanunu ilə hamiləliyin ilk 12 həftəsi ərzində heç bir izahat vermədən qadına abort hüququ verilir. Danimarkanın 1973-cü ildə qəbul edilmiş «Hamiləliyin süni surətdə dayandırılması haqqında» 350 №-li qanununda da qadınlara belə hüquq verilir. İsveçin 1974-cü ildə qəbul edilmiş «Abort haqqında» 595 №-li qanununda qadınlara bu hüquqdan istifadə etmə müddəti hamiləliyin 18 ayına qədər uzadılmışdır (3, s. 199).

Qeyd edək ki, Danimarkanın Cinayət Məcəlləsində hamilə qadına kömək etməməyə görə məsuliyyət müəyyən edən maraq doğuran norma vardır. Belə Ki, Məcəllənin 255-ci paraqrafına görə istənilən kişi ondan nikahdan kənar hamilə qalmış qadına doğuş üçün zəruri olan köməyi etmədiyinə görə bir ilədək azadlıqdan məhrum etmə və ya cərimə cəzasına məhkum edilə bilər. Hamilə vəziyyətdə olan qadına zəruri köməyi etməyən istənilən ailə üzvü də cərimə və üç ayadak müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur.

Polşanın Cinayət Məcəlləsinin 152-ci maddəsinə görə hamilə qadının razılığı ilə hamiləliyin qanunsuz dayandırılması üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Döl hamilə qadının orqanizmindən kənarda müstəqil yaşamaq qabiliyyətinə çatdığı halda abort etməyə görə səkkiz aydan altı ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur.

Qanunsuz abort etmə ilə bağlı xarici ölkələrin cinayət qanunvericiliyinin öyrənilməsi bir sıra nəticələr çıxarmağa imkan verir. Belə ki, bir sıra ölkələrdə qanunsuz abort etməyə görə cinayət məsuliyyəti müəyyən edilərkən cinayət-hüquqi mühafizə obyekti qismində qanunverici hamilə qadının həyatı və sağlamlığı ilə yanaşı dölün həyatını da nəzərdə tutur. Bu, hamiləliyin müddətindən və ya dölün həyat qabiliyyətindən asılı olaraq cinayət məsuliyyətinin diferensiasiyasında öz əksini tapır. Hamiləliyin süni şəkildə dayandırılmasının qanunsuz olması təkcə cinaytin subyektinin statusu ilə deyil, hamiləliyin dayandırılması üçün şəraitin olmadığı əməliyyatın aparıldığı yerlə əlaqələndirilir. Çox vaxt hamilə qadını abort etməyə sövq etməyə və ya ona müstəqil abort etməyə kömək etməyə görə cinayət məsuliyyəti müəyyən edilir. Bəzi ölkələrdə hamiləliklə və gələcək doğuşla bağlı ağır və ya münaqişəli vəziyyətdə olan hamilə qadınlara psixoloji və digər kömək göstərmək üçün məsləhət mərkəzlərinin yaradılması bilavasitə cinayət qanunvericiliyində nəzərdə tutulur.

## ƏDƏBİYYAT


1. Ансель М. Методологические проблемы сравнительного права. Очерки сравнительного права. М.: 1991.
2. Власихин В. Контрацептивы, аборт и кончина в коматозе – по разрешению Верховного Суда США // Российская юстиция. 2000. № 10.
3. Драгонец Я., Хондлер П. Современная медицина и право. М.: 1991.
4. Капинус О.С. Современное уголовное право в России и за рубежом: некоторые проблемы ответственности. Сборник статей. М.: Издательский дом «Буквовед», 2008.
5. Крылова Н.Е., Серебренникова А.В. Уголовное право современных зарубежных стран. М.: 1997.
6. Тихомиров Ю.А. Курс сравнительного правоведения. М.: 1996.

7. Verstam A.H. Supreme Couts ciarifiesabortion pules // Hospitals. 1983, №17.
8. www. herpes.ru.

## ВОПРОСЫ РЕГУЛИРОВАНИЯ НЕЗАКОННОГО АБОРТА В УГОЛОВНЫХ ЗАКОНОДАТЕЛЬСТВАХ ЗАРУБЕЖНЫХ СТРАН

**Т.М.МАМЕДОВ**

**РЕЗЮМЕ**

В статье исследуется вопрос регулирования незаконного аборта в уголовных законодательствах зарубежных стран. Эти страны группируются в соответствии с отношением к аборту, анализируются нормы ответственности за незаконный аборт в уголовных законодательствах ряда стран.

В статье проводятся обобщения по исследуемому вопросу и делаются соответствующие выводы.

## THE MATTERS OF BALANCING OF HAVING AN ABORTION ILLEGALLY IN THE CRIMINAL LEGISLATION IN FOREIGN COUNTRIES

**T.M.MAMMADOV**

**SUMMARY**

In the article the matter of balancing of having an abortion illegally in the Criminal legislation in foreign countries. Is investigated and the countries are grouped according to abortion.

The responsibility of having an abortion illegally in the Criminal legislation of some countries and the norms which define them are analysed as well. The matters, analysed in the article are socialized and certain conclusions are taken into consideration.